*Ələkbərova Əzizə.Həmzə Nigarinin həyat və yaradıcılığı //Elmi əsərlər,2022,1(14),yanvar-iyun,s.49-53.*

UOT: 82-1.512.162

**Əzizə Ələkbərova**
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küçəsi 26*
a-mail: aalekberli@mail.ru

# HƏMZƏ NİGARİNİN HƏYAT VƏ YARADICILIĞI

**Açar sözlər:***Həmzə Nigari, təriqət, şeir, Qarabağ, mədəniyyət, siyasət, Rusiya.*

***Giriş.*** *XII əsrdən etibarən Azərbaycanda islamın geniş yayılmış ezoterik dini və fəlsəfi cəryanı olan təsəvvüf məktəbinin Sührəverdiyyə, Əbhəriyyə, Zahidiyyə, Səfəviyyə, Xəlvətiyyə kimi beş böyük təriqəti ilə yanaşı Mövləvilik, Hurufilik, Əxilik, Ələvilik və Nəqşibəndilik adlı mistik cəryanlar da təşəkkül tapmışdır. Nəqşibəndilik təriqətinin ilk nümayəndələri XV əsrdə yaşamış Nematullah Naxçıvani olmuş və təriqətin xeyli insan arasında yayılmasında böyük zəhmət sərf etmiş, lakin özündən əlavə güclü təmsilçilər yetişdirə bilməmişdir. Sonradan isə Azərbaycanda ictimai-siyasi vəziyyətlərin dəyişməsi bəzi təriqətlərin, ümumiyyətlə isə təsəvvüfün zəifləməsinə səbəb olmuşdur. Aradan keçən uzun zamandan sonra, yəni XIX əsrdə Nəqşibəndilik Kürdəmirdə Şeyx Xalidi Bağdadinin xəlifəsi olan Şeyx İsmayıl Şirvaninin başçılığı ilə şimal bölgəsində yayılmağa başladı. Qutqaşınlı Yəhya Əfəndi və Mir Həmzə Nigari tərəfindən təriqətin təbliği davam etdirilmişdir. Digər Nəqşibəndlik təriqətinin Halidiyye (Kürd əsilli islam alimi, şair Mövlana Halidi Bağdadinin şərəfinə adlandırılmışdır) qolunun nümayəndələrinə nisbətən Həmzə Nigarinin nüfuzu daha geniş yayılmış, yalnız Azərbaycanda deyil, həmçinin Türkiyədə də tanınmışdır.*

*Osmanlı imperiyasının dərin bilikli və ədəbi qabiliyyətə malik şəxsiyyətlərindən biri olan Mustafa Fəxrəddin Ağabali "Hümayi-Ərş" əsərində Mir Həmzə Seyid Nigarinin bioqrafiyası haqqında bəhs etmişdir.*

**Əsas mətn.** Seyid nəslinə məxsus Mir Həmzə Nigari həzrətləri Azərbaycanın 2020-ci ildə düşmən tapdağından azad edilən və qədim ərazisi olan Qarabağın Zəngəzur bölgəsinin Bərgüşad (indiki Laçın rayonu) mahalının Cicimli kəndində (Kəndin əvvəlki adı Nevşəhər olub. Cicimli kəndinin digər məşhur şəxsi Sarı Aşıqdır) 1798-ci ildə seyyidül - əvan Seyid Mir Rüknəddinin ocağında anadan olmuşdur [1,s.43]. XII əsrdə Xorasandan Qarabağa köç edib məskunlaşan Həzrəti Həsən soyundan olan Seyid Məhəmməd Şəmsəddin Ağabalı nəslinə məxsus Rüknəddin Əfəndi və Qızxanım xanımın Seyid Həmzədən başqa Gözəlxanım,Salihə adlı iki qızı da olmuşdur. Rüknəddin Əfəndiyə o bölgənin insanlarının məsləhət verdiyi, hamı ilə xoş münasibət qurduğu, insanların köməyinə çatdığı üçün Mirpaşa ləqəbi qoymuşdular. Əhalinin işlərində güvəndiyi Rüknəddin Əfəndini təəssüf ki, Həmzə altı aylıq olduğu zaman tarla məsələsinə görə bəzi tamahkar insanlar tərəfindən Cavanşir günbəzi yaxınlığındakı Boğazsiyirtməz mövqeyində şəhid edilmişdi. Atasının ölmündən sonra anası ömrünü övladlarını böyütməyə həsr etmişdi.Övladlarına görə ailə qurmayan anası uşaqlarının qayğısına qayınlarından çox qalmış, ancaq Həmzə 15 yaşına qədər anasını incitmiş, digər yaşıdları kimi silahla, barıtla məşğul olmuşdur. 15 yaşında anasına demədən Qaraqaş kəndinə gizlicə gedib Mahmud Əfəndi həzrətlərindən dərs almağa başlamışdır. Daha sonra Şəkinin Dəhnə kəndində Şikəst Abdulla Əfəndi həzrətlərinin sinifində təhsilə başlamış, lakin ərəb ədəbiyyatına dair dərslər qane etmədiyi üçün Osmanlı İmperiyasının ərazilərinə getmişdir. Beş ilə yaxın təhsil aldığı Qaraqaşi Mahmud Əfəndidən təhsil aldığı dövrdə müəllimin

zövcəsi Nigar xanım Həmzənin qayğısına qalmış və buna görə özünə “Nigari” təxəllüsünü götürmüşdür[1,s.50]. Təxminən 1840-cı illərdə İsmayıl Siracəddin Şirvaninin əmri ilə Azərbaycana qayıtmışdır. Elm öyrənmək üçün gələnlərə qışda Cicimlidə Sarı Aşığın məzarı yaxınlığındakı mədrəsədə, yayda isə Bərgüşadın Mirlər kəndindəki Bərgüşad çayının yanında özünə aid hücrədə təhsil-tərbiyə öyrədirdi.

Mirlər kəndində Mir Saleh Əfəndinin qızı Əzizə xanımla ailə həyatı qurur, ancaq Əzizə xanımla ailə həyatı iki ilə yaxın davam etmişdir. Əzizə xanım doğuş zamanı vəfat etdiyi üçün Nigari onun kiçik bacısı, öz gözəlliyi ilə fərqlənən Şəhnisa xanımla evlənmişdir. Təəssüf ki, dörd il davam edən bu izdivacdan uşaqları olmadığı üçün ayrılmışdılar [1,s.69]. Üçüncü dəfə Seyid Həmzə Araz çayı kənarında yerləşən Molla Məhərrıəmli kəndindən olan dindar Allahverdi Əfəndinin qızı Əminə xanımla izdivaca daxil olmuş və bu izdivacdan onların Siracəddin Əfəndi adlı oğlu doğulmuşdur.

Seyid Həmzə Nigari öz elmi ilə o qədər məşhurlaşıb nüfuz dairəsini genişləndirir ki, hətta Qarsda olan bir qərarda qeyd edilir ki, əgər Rusiya ilə Osmanlı imperiyası arasında hər hansı münaqişə olarsa Osmanlı ordusunun hücumundan sonra Qarabağda Şeyx Hacı Həmzə Əfəndi, Şəkidən Əhməd Əfəndi, Dağıstanda Xasay xan qəfil üsyan çıxarmalı idi [1,s.70-71]. Bu qərara aid məktub daşıyan şəxslər Rus hökuməti tərəfindən tutulmuş, bu xəbəri eşidən Seyid Həmzə Əfəndi öz tərəfdarları ilə gecə ikən Araz çayını keçərək Culfa, Xoy, Salmas, Urmiyaya, Ərzuruma getmişdi. Yanında gedən məsləkdaşlarından Hacı Himmət, Hacı Məhəmməd, Muqim Əbdürrəhman Ərzurumdan Qarabağa qayıtmış, Nigari isə bacısının oğlu Mir Əbdülcabbarzadə Cəfər Təyyar və əmisinin oğlu Mir Mustafazadə Mühibbüddin ilə Ərzurumda qalmışdı. Ərzurumda əslən Şəkidən olub Ərzuruma hicrət etmiş Hacı Əbdüləzimin qızı Züleyxa ilə ailə qurmuşdu. Züleyxa ilə izdivacından Rüknəddin adlı oğlu və Zəhra adlı qızı doğulmuşdu. Əmisi oğlu Mühibbüddin çiçək xəstəliyinə tutulmuş , xəstəliyi öncə Zəhraya, sonra isə Rüknəddinə keçdiyi üçün altı ay fasilə ilə uşaqları vəfat etmişdir. Övladlarının vəfatından altı ay sonra Ərzurumdan Amasiyaya getmişdi. Amasiyadan və digər ərazilərdən gələn böyük yaşlı tələbələrinə “İsbatül - vacib”, kiçik yaşlı şagirdinə isə məntiqdən “Hüsam Qəti” oxudur, Hafiz Şirazinin divanını öyrədirmiş. Yaraşıqlı vücuda, gözəl simaya malik olmaqla yanaşı öz irfanını, nəzakətini daha inkişaf etdirərək böyük nüfuz sahibi olmuşdur. Divan həcmində şeirləri olsa da təəssüf ki, toplanmamışdır. 1880-81-ci illərdə vəfat etmiş və məzarı Şamlar qəbirstanlığında olub yeri dəqiq məlum deyil.

Nigari yaydığı təriqət, elm, irfanla yanaşı Azərbaycan və Türkiyə ədəbiyyatında öz yaradıcılığı ilə qalmış, əsərləri ilə kifayət qədər tədqiqat mövzusu olmuşdur. Özünə təxəllüs götürdüyü Nigari təxəllüsünün sahibi olan xanımın şərəfinə “Nigarnamə” əsərini, həm də türk və fars dilində Divan yazmışdır.

Bu il ilk dəfə olaraq Seyid Həmzə Nigariyə həsr edilmiş “Beşinci Beynəlxalq Həmzə Nigari Simpoziumunun keçirilməsi” layihəsi 30 ildən sonra əsl sahibləri tərəfindən erməni qəsbkarlarından azad edilmiş Qarabağ bölgəsinin Ağdam rayonunda təşkil olunmuşdur:

*Nə əcəb dövlət imiş seyri-şikari-Qarabağ,*
*Nə gözəl nemət imiş söhbəti-yariQarabağ!*
*Rəşki-mişk-ənbər imiş buyi-ğubari-Qarabağ,*
*Abi-heyvan imiş ənhari-punari-Qarabağ.*
*Kövsərü Tuba imiş çayi-çinari-Qarabağ,*
*Aləmi-cənnət imiş dari-diyari-Qarabağ.*
*İmdi bildim nə imiş vəsfi-həzari-Qarabağ,*
*Yeridir kim çəkərəm ah və zari-Qarabağ.*

*Dağlayıbdur bəni bir laləüzari-Qarabağ,*
*Yandırıbdur bəni bir nari-nigari-Qarabağ [2,s.16-17].*

Qarabağ ovlamaq üçün gözəl şikar, yar söhbəti kimi maraqlı mövzu, incə zövqlə hazırlamış məstedici qoxu, cənnətdə axan bulaq, süddən də təmiz olan su, ümumilikdə isə heç bir sözün vəsf etməyə gücü çatmadığı cənnət diyarıdır. Bir çox yerlərdə olan Seyid Həmzə anlamışdı ki, Qarabağ öz qeyri-adi təbiəti ilə ən güvənilən məkan, harada olmasından asılı olmayaraq həmişə həsrətində olduğu vətəndir ki, qəriblikdə olduğu müddətdə bu ayrılıq onun qəlbini hüsnü gözəl yar həsrəti kimi dağ çəkmişdir.

Azərbaycan mədəniyyətində, ədəbiyyatında dərin iz qoymuş, İbrahiməli xanın nəvəsi, sonuncu Qarabağ xanı Mehdiqulu xanın qızı Natəvana və Qarabağa qarşı aparılan məddah siyasəti sezən Nigari narahatlığını həmişə qeyd etmişdi. Yazıçı Mehriban Vəzirin də yazdığı kimi işğalıçı rus, yalnız Qarabağın talehini deyil, həmçinin Natəvanın şəxsi həyatı haqqında qərar vermişdi: "...Qalada ağalıq edən dünənki nökər erməni Madatov artıq general olmuş, Xanqızının, xanədanın taleyini cızırdı... Xurşbanu bəyimin izdivacını tam nəzarətə götürmüşdü. Çardan gələn göstərişə görə Xanqızı xanədandan olan, varislik haqqı olan kimsəyə ərə gedə bilməzdi. Yaxın qohumlarına - Cavanşirlərə ərə gedə bilməzdi. Qonşu xanların varislərinə ərə gedə bilməzdi. Belə izdivaclardan doğulanların, əsli, nəcabəti, tayfası olanların yeni iddiaları doğula bilərdi... Bu səbəbdən Xanqızını Dərbənd türkü - kumık Xasay xanla evlənməsi "məsləhət görüldü". Evləndilər. Dünyaya iki övladları gəldi...". Seyid Həmzə, Əhməd Əfəndi ilə birgə Şuşa qalasında Xan bağı adlanan yerdə Dərbənd xanəndanlarından olan Xasay xan Usmuyevin malikanəsinə yığışıb qərara gəlirlər ki (göstərişin Şeyx Şamildən gəldiyi güman edilir), müsəlmanların yaşadığı bu bölgədə xristian hakimiyyəti altında yaşamaları müvafiq deyil, ona görə tədbir görmək lazımdır. Lazımi hərəkat planı cızılaraq qərara gəlinir ki, Osmanlılarla ruslar arasında münaqişə olsa bunlar üsyan yaradacaq və bu xəbəri ermənilər ruslara çatdırır. Natəvanın qohumu şair Qasım bəy Zakir də başda olmaqla heç kəs sünni Xasay xan Usmuyevlə Xanqızının evliliyinə razı deyildilər. Ruslar sünni məsələsini qaldırmaqla bəxtsiz Natəvananın "vicdanlı" qohumları vasitəsi ilə Xasay xanın Şuşadan qovulması arzularını gerçəkləşdirməyə çalışdılar. Bəli, müxaliflər yaranmış ilk fürsətdən istifadə edərək Xasay xanla Xanqızını ayırırlar. Qarabağın ictimai işlərində də fəal olan Xanqızının həyat yoldaşı olmayan qadın kimi şəxsi problemləri çoxalır ki, əlbəttə bu vəziyyət rus və ermənilərin Qarabağda istədiklərini etməyə tam şərait yaradır. Həmzə Nigari də bilavasitə bu işlərin içində olduğu üçün Qarabağın, doğma ata - baba yurdunun talehindən olduqca bədgüman idi:

*Eşqin kanı Qarabağdır məkanım,*
*Bülbülü-şeydayam, cənnət yerimdir,*
*Əzəl başdan Qaraqışlı bustanım,*
*İndi gülüstanım Qara pirimdir*

*Sinəmə çəkilən qara dağımdır,*
*Yandıran aləmi gör nə çağımdır!*
*Qara bağrım qanlı Qarabağımdır,*
*Gözlərimdən axan yaşi-tərimdir [2,17],*

Birinci dəfə təhsilinə görə uzun müddət Qarabağdan ayrı düşən Nigarı bu hadisədən sonra birdəfəlik Qaranbağdan didərgin düşmüş, bir daha doğma diyarına qayıda bilməmişdi. Yaradıcılığında həm əruz, həm də heca vəzninə müraciət edən Həmzə Seyid

Nigari vətən həsrətin yaradıcılığında təsvir edərək yazır ki, Qarabağın bir qönçə gülünün, gözəl ceyranının xəstəsiyəm, arzu edirəm Qarabağın hər dağında, ovlağında, bağında şənliklər olsun, Qarabağ daha da abadlaşsın:

*Gözlərimdən hər dəm qan-yaş tökülür,*
*Sərvtək qamətin yaytək bükülür.*
*Sinəmə çal-çarpaz dağlar çəkilir,*
*Yadıma düşəndə Çilgəz yaylağı.*

*Xabları Huridir, Mələk mənzərdir,*
*Sözləri şirindir, şehdü-şəkərdir.*
*Cənnəti-Məvadır, Hovzi-Kövsərdir,*
*Qaraqaş yaylağı, Həmzə bulağı.*

*Ey Nigari, ömrün erişdi payə,*
*Salmadı başıma ol sərvi sayə.*
*Can qurban eylərəm peyki səbayə,*
*Xəbər versə bir gün ol Qarabağdan [4].*

Yaradıcılığında vətən, Qarabağ mövzusu başlıca olmasının səbəbi öz vətənini, hətta ailəsindən, anasından daha çox sevdiyinə dəlalət edir. Anası uzun müddət onun həsrəti ilə yaşasa da o, ancaq müəlliminin göstərişi ilə anasının yanına qayıtmış, anası vəfat etdikdə isə qayıtmamışdır. Lakin vətən vüsalına görə hər an ağlayır, qaməti bükülür, bağrı çatlayır. Qarabağ yaylaqları, dağları, çayları, meşələri o qədər gözəldir ki, sanki huridir, mələkdir, ümumiyyətlə isə Qarabağ əsl cənnət məkanıdır. Bu cənnətdən ötrü canını verməyə hazırdı, təki Qarabağdan bir xəbər gəlsə.

Yaxud da ədibin digər qəzəlinə diqqət yetirdikdə Nigari konkret yer adları çəkməklə öz yurdunun peyzajını yaradır:

*Yaqdı, yandırdı bəni nari-nigari, nedəyim?*
*Ta ki canimdə qərar eylədi nari, nedəyim?*
...
*Alamaz atəşi-hicranimi çayi-Bərşad,*
*Eyləməz sud bana çayi-Həkari, nedəyim?*

*Eyləməz faidə suzanimə çayi-Xaçin,*
*Çayi-Tər-Tər dəxi söndürməz o nari, nedəyim?*

*Eyləməz çayi-Ərəs faideyi atəşimə,*
*Çayi-Kür söndürməz nari-mənari, nedəyim? [2, s.41]*

***Nəticə.*** *Erməni qəsbkarlarının işğalı nəticəsində 30 il idi ki, Qarabağ əhalisi ədibimiz kimi Bərgüşad, Həkəri çayının həsrətini çəkirdi. Milli ordumuzun, şücaətli hərbiçilərimizin, igid oğullarımızın döyüşkənliyi nəticəsində Həkərinin, Bərgüşadın bu gün azad olunması Nigarinin həmvətənlərinə böyük hədiyyə olmuş, sevinc bəxş etmiş, həsrətlərinə son qoyulmuşdur. Vətəni sevən imanlı oğullarımızın böyük sevgisi, qürurumuz sayılan torpaqlarımızın azad olunmasına əsas təkan olmuşdur. Azad edilmiş torpaqlarımızda ilk tədbirlərin biri də Həmzə Nigariyə həsr olunmuş, quruculuq işlərindən sonra daha böyük Nigari həyat və yaradıcılığından bəhs edən beynəlxalq konfranslar*

*keçirələcəyinə əminik. Bu cür konfranslar nəticəsində Nigarinin həyat və yaradıcılığı daha dərindən öyrəniləcəkdir.“ Seyid həmzə Nigarinin yaradıcılığı barədə böyük ədiblərimiz də öz fikirlərini bildirmişlər. M.S.Ordubadi öz təhsili haqqında məlumat verərək yazır: “Axırıncı dərsi, farsca - ərəbcə dərsi Seyid Həmzədən almışdır”” bu kimi maraqlı faktlar araşdırmaçılar tərəfindən tədqiq edilib aşkarlanacaq,yeni fikirlər söylənəcəkdir [3, s.19].*

**Ədəbiyyat:**

1. Mirzadə Mustafa Fəxrəddin Ağabali. Hümayi - ərş. Qarabağlı Şeyx Mir Həmzə NigarininMənaqibnaməsi. “Nurlan" nəşriyyat – poliqrafiya, 2015.
2. Məmmədli. Nəzakət Mir Həmzə Seyid Nigari. Nigarnamə. Bakı: Elm və təhsil, 2012, 408 s.
3. Bağırova Könül. Azər Buzovnalı yaradıcılığı: tarixilik və müasirlik (Monoqrafiya) Bakı: “Elm və təhsil”, 2022, 260 s.
4. Qarabağ (Nigari) wikpedia

***Азиза Алекперова***

**ЖИЗНЬ И ТВОРЧЕСТВО ХАМЗЫ НИГАРИ**

**Резюме**

В XII веке в Азербайджане также была распространена школа суфизма под названием Накшбанди. В XIX веке секту Накшбанди продвигал Мир Хамза Нигари. Наряду с сектой и наукой, которые распространял Нигари, своим творчеством он всегда был предметом исследования в литературе Азербайджана и Турции.

**Ключеиые слова:** *Хамза Нигари, секта, поэзия, Карабах, культура, политика, Россия.*

***Aziza Alakbarova***

**LİFE AND CREATİVİTY OF HAMZA NİGARİ**

**Summary**

İn the 12th century, the Naqsbandi school of sufism in Azerbaijan was also widespread. In the 19th century, the Naqshbandi sect was promoted by Mir Hamza Nigari. Nigari has always been the subject of research with his creativity in the literature of Azerbaijan and Turkey along with the sect and science that Nigari spread.

**Key words:** *Hamza Nigari, sect, poetry, Karabakh, culture, politics, Russian.*

*Redaksiyaya daxil olma tarixi: 01.03.2022*
*Çapa qəbul olunma tarixi: 12.04.2022*

*Filologiya üzrə elmləri doktoru Paşa Kərimov*
*tərəfindən çapa tövsiyə olunmuşdur.*